Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *“Məktəb zamanı gəldi...”*

**Bilik Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2016**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**Buraxılışa məsul** **Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

**“Məktəb zamanı gəldi...”/** metodik vəsait / tərt. ed. Ruhiyyə Məmmədli, Sevil Əhmədova, red. Səməd Məlikzadə və ix. red və burax. məsul Şəhla Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 40 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçi




Xalqımızın mənəvi yüksəlişində böyük rol oynayan mədəniyyət ocaqlarından biri də F.Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. Kitabxananın başlıca vəzifəsi gənc nəslə mədəni xidmət göstərmək, məktəbli oxucuların mütaliəsinə düzgün istiqamət vermək, onlarda vətənpərvərlik, cəsurluq, ləyaqət və bu kimi digər gözəl hisslər aşılamaqdir. Bu bilik ocağı həmişə məktəblərlə əməkdaşlıq etmiş, birgə layihələr, tədbirlər həyata keçirmişlər.

Bildiyimiz kimi, 15 sentyabr - Bilik Günüdür. Həmin gün ölkəmizdə yeni dərs ili başlayır. Minlərlə uşaq məktəblərə yollanır, bilik dünyasına gedən yolda ilk addımlarını atırlar. Həmin gün uşaq kitabxanalarında da böyük canlanma yaranır və uşaqlarla əməkdaşlıq genişlənir.

Bilik Günü məktəb həyatına qədəm qoyan birincilər və onlarin valideynləri üçün də əlamətdar bir gündür. Dünənədək qayğısız gəzib-dolanan uşaqlar tezliklə əlifba ilə tanış olacaq, yazıb-oxumağı öyrənmək üçün səy göstərəcəklər. Daha sonra onlar kitabxanalara gəlib, kitablar oxuyacaq, şeirlər əzbərləyəcək və beləcə kitablar aləminə və yeni həyata qədəm qoyacaqlar.

# 15 Sentyabr - Bilik Günüdür

Sentyabrın 15-də ölkəmizin bütün ümumtəhsil məktəblərində və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Bilik Günü Azərbaycanda yeni dərs ilinin başlandığı gün kimi qeyd edilir. 2004-cü llədək həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə ölkənin bütün təhsil müəssisələrində dərslərin 15sentyabrdan başlanma sı qərara alınmış, beləliklə, həmin tarix Bilik Günü elan edilmişdir.

Azərbaycan Respublikası bu gün öz inkişafının yeni mərhələsini yaşayır. Məlumdur ki, hər bir ölkənin tərəqqisi və gələcəyi oradaki təhsilin səviyyəsindən çox asılıdır. Buna görə də dövlətimiz, şəxsən Azərbaycan Prezidenti İlham Əliyev təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərir. Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ötən əsrin 70-ci illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb, o vaxtdan başlayan qlobal miqyaslı təhsil quruculuğu sonrakı inkişaf üçün güclü təməl olub. Böyük öndərin ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadəyə keçməsi haqqında imzaladığı sənəd də onun yeni nəslə böyük töhfəsi idi. Ulu öndər hər zaman müəllimlərə də daim hörmətlə yanaşıb, onlarin əməyinə yüksək qiymət verib. Bax elə buna görə Heydər Əlliyev respublikamıza rəhbərlik etdiyi illərdə çoxlu sayda təhsil işçisi orden və medallara, fəxri adlara layiq görülüb. Azərbaycanda ali təhsil də Heydər Əliyev dövründə inkişafa qədəm qoyub. Ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Müdrik dövlət başçısının daha bir xidməti görə Heydər Əlliyev respublikamıza rəhbərlik etdiyi illərdə çoxlu sayda təhsil işçisi orden və medallara, fəxri

adlara layiq görülüb. Azərbaycanda ali təhsil də Heydər Əliyev dövründə inkişafa qədəm qoyub. Ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Müdrik dövlət başçısının daha bir xidməti həmin illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi idi. O vaxt 15 mindən çox gənc Azərbaycandan kənarda ali təhsil alıb. Ulu öndərin istəyi ilə yaradılan Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb isə ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayıb. Böyük öndər Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə elmin, təhsilin inkişafına kömək məqsədilə böyük işlər görülüb. Məktəb tikintisi, peşə təhsilinə diqqət, büdcədən təhsilə ayrılan vəsait ildən-ilə çoxalıb. Hər il qəbul zamanı ən yüksək bal toplayan gənclərə Prezident təqaüdü, istedadlı gənclərə fəxri təqaüdlərin verilməsi də təhsilə qayğıdır.

Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir: ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə Dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır.

Prezident İlham Əliyevin sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin müxtəlif ölkələrin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Onların bir qismi təhsilini başa vuraraq Vətənə qayıdıb.

Təhsilin inkişafında Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən 400-ə yaxın məktəb tikilib və yenidən qurulub, həmçinin 40-a yaxın uşaq evi və internat məktəbi əsaslı təmir və bərpa olunub, lazımi avadanlıqla təchiz edilib. Fondun dəstəyi ilə əyani tədris vəsaitləri çap edilib. Fond 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrindən olan uşaqları, eləcə də xarici ölkələrdə yaşayan məktəbli soydaşlarımızı yeni dərs ilində təzə dərs vəsaitləri ilə sevindirir.

**15 sentyabr - Bilik Günü ilə bağlı kitabxanalarda, mədəniyyət müəssisələrində keçiriləcək tədbirlər**

Kitabxanada uşaqlarla 15 sentyabr - Bilik Gününə hazırlıq məqsədilə "Əsrimiz, təhsilimiz və biz" adlı söhbət keçirmək olar. Kitabxanaçı əvvəlcə bu mövzuda kitabxanada sərgi təşkil edir. Sərgidə Bilik Günü, elm və təhsil, uşaqların həyatında məktəbin rolu mövzusunda ədəbiyyatlar, dövri mətbuat nümunələri nümayiş olunur. Sərgiyə müxtəlif başlıqlar vermək olar. "15 sentyabr - Bilik Günü", "Təhsil bizim gələcəyimizdir", "Əsrimiz, təhsilimiz və biz", "Bilik ağlın aynasıdır", "Elm ağlın çırağıdır", Elm öz sahibinə böyük zinətdir", "Elmsiz adam meyvəsiz ağac kimidir" və s. Kitabxanaçı sərginin ətrafında oxucularla bu mövzuda söhbət edib, kitablar haqqında məlumat verir. Sərgidə görkəmli şəxsiyyətlərin elm, təhsil haqqında söylədiyi müdrik kəlamlardan, atalar sözlərindən də istifadə edilir.

*Kitabxanaçı Bilik Günü ilə bağlı təşkil etdiyi sərginin qarşısında məktəblilərlə sual-cavab, rəy sorğusu da keçirə bilər.*


Nurəngiz Rzayeva
Mehriban İsmayılova
UŞAQLARIN İDRAK PROSESLƏRİNİN İNKİŞAFINA XİDMƏT EDƏN
DİDAKTİK MATERİALLAR


MAHİR NEMƏTOĞLU
ƏSRİMİZ, TƏHSİLİMİZ VƏ BİZ


TƏRANƏ SADIQOVA
ZÖHRƏ ƏLİYEVA
Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində oyunlardan istifadə


Şəkillərlə NAĞIL YAZMAĞI ÖYRƏNƏK
5 NAĞIL


T. SADIQOVA, S. ABDULLAYEVA
Məktəbəqədər yaşlı uşaqların nitq inkişafına xidmət edən didaktik oyunlar


Gülarə Rüstəmova
4-5 yaşlı uşaqlar üçün
BALACA riyaziyyatçı
Sadə riyazi təsəvvürlərin formalaşması üçün
tapşırıqlar və tövsiyələr


5-6 yaşlı uşaqlar üçün
VAXTLA TANIŞLIQ


RİYAZİYYAT
NİTQİN İNKİŞAFI
ƏTRAF MÜHİT
3 - 4 yaşlı uşaqlar üçün


MÜNTƏXƏBAT


MƏKTƏBƏHAZIRLIQ QRUPUNDA FİZİKİ MƏDƏNİYYƏT MƏŞĞƏLƏLƏRİ


Oqtay RƏCƏBOV
Sevda ALMURADOVA
Gülnarə MƏMMƏDOVA
UŞAQ BAĞÇALARINDA MART BAYRAMLARI İLƏ ƏLAQƏDAR
SSENARİLƏR, ŞEİR VƏ MUSİQİ NÜMUNƏLƏRİ


UŞAQLARIN MÜŞAHİDƏ VƏ QEYDİYYAT VASİTƏSİ İLƏ ÖYRƏNİLMƏSİ


BABA ƏHMƏDLİ
AZƏRİZM YOLUNDA
Türkizmə doğru


ABU
MEHRİBAN ŞİRZADOVA
AZƏRBAYCANDA MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF TARİXİNDƏN
Bakı - 2007


VƏTƏNDAŞ VƏ TARİX
TARİXİN OLAYLARINDA
İRŞAD İBRAHİMOV

## Elm və bilik haqqında müdrik kəlamlar

Heç bilənlə bilməyən (alimlə cahil) eyni ola bilərmi?
*Qurani-Kərim*
Elm tələbi üçün yola çıxan kimsə dönüncəyə qədər Allah yolundadır.
Ən böyük sədəqə biliyi bilməyənlər arasında yaymaqdır.
Hər kim elm öyrənərsə, keçmiş günahlarına kəffarət olar (bağışlanar).

***Hz.Məhəmməd (s.a.s.) peyğəmbər***

Çox bilmək lazımdır ki, az bildiyini biləsən.

***Azərbaycan atalar sözü***

Bilik öyrənməyi ar bilən hər kəs,
Dünyada mərifət qazana bilməz.
Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz,
Hər uca zirvədən, bilin ki, fəqət.
Alimin rütbəsi ucadır, əlbət!

***Nizami Gəncəvi***

Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli-məkrə təlimi-məarif, zinhar!
Hiylə üçün elm təlimin qılan müfsidlərə,
Qətli-am üçün verər cəllada tigi-abidar.

***Məhəmməd Füzuli***

Kim özünü xalqın maariflənməsinə həsr edirsə, mükafatı özündə tapır, öz vicdanını təımizləyir.

***Həsən bəy Zərdabi***

Sən nə qədər bilirsən bil, sənin biliyin qarşındakının anladığı qədərdir.

***Cəlaləddin Rumi***

Öyrəndiklərini etsən, susduğun vaxt işlərin danışar.

***Əbdülqadir Geylani***

Biliyinlə qürrələnmə, bilmədiklərin bildiklərindən qat-qat çoxdur.

***Hümam Təbrizi***

Biliksiz adam okeanda azan yelkənsiz gəmiyə bənzəyər: ya sahilə çırpılıb parçalanar, ya da tufana düşüb batar.

***Pifaqor***

Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir.

***Onore de Balzak***

Bilik güc, güc isə bilikdir.

***Frensis Bekon***

Bilik nə qədər dövrlərə nəzər salmağa imkan yaradır.

***Uinston Çörçill***

Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düçmən ola bilməz.

Ədalətdən kənarda olan bilik müdriklik deyil, dələduzluqdur.

***Sokrat***

Başımızı bəlaya salan bildiklərimiz yox, doğru zənn etdiklərimiz dir.

***Avraam Linkoln***

Bilikli adamın bir günü  nadan adamın bütün ömrünə bərabərdir.

***Ərəb atalar sözü***

Nə qədər yaşayırsan, öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək.

***Solon***

Biliyə aparan yeganə yol zəhmətdir.

***Bernard Şou***

Bilməməkdən qorxma, səhv bilməkdən qorx. Çünki bütün fəlakətlər ona görə baş verir.

***Lev Nikolayeviç Tolstoy***

Bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi də bacarasan.

***Mark Till Siseron***

Ağıl köhnəlməyən geyimdir, bilik tükənməyən mədən.

***Qırğız atalar sözü***

Biləyi güclü birini yıxar, biliyi güclü minini.

***Özbək atalar sözü***

Öz bildiyini başqalarına öyrət, başqalarının bildiklərini də özün öyrən.

***Yohan Volfqanq Höte***

Gələcəkdə peşman olmaq istəmirsənsə, öz ailəni təhsildən məhrum etmə.

***Aleksandr Sergeyeviç Puşkin***

Biliyi heç vaxt ali təhsil diplomu ilə məhdudlaşdırmayın. Daim oxumaq öyrənmək lazımdır.

***Karl Veber***

Gənc ikən bilik ağacını əkməsək, qocaldığımız zaman kölgəsinə sığınacaq bir yerimiz olmaz.

***Nikolo Sebastyan Şamfor***

O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir, ona ehtiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhməkeşdir, ona kömək edin. O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun.

***N.Tusi***

İnsana heç nəyi öyrədə bilməzsən. Ona ancaq öyrənməyi öz içində tapa biləcəyindən başqa.

***Qalileo Qaliley***

Sivilizasiyamızın gələcəyi elmi düşünmə qabiliyyətinin get-gedə yayılması və dərinləşməsi ilə bağlıdır.

***Jon Devey***

Bir quruluşun sahib olduğu yeri doldurulması mümkün olmayan tək sərmayə insanın bilik və bacarığıdır.

***Endri Karneqi***

Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kimin düşünmədiyini düşünmək deməkdir.

***A.Dreydi***

Dünya artıq əməktutumlu, xammaltutumlu, enerjitutumlu deyil, biliktutumlu olmaqdadır.

***Piter Druker***

İnsanın ağlı ona hər hansı bir məhdudiyyətlərin tətbiq olunmasına nifrət edir.

***Jozef Eddison***

Sənə bir şeyi necə biləcəyini öyrədimmi? Bildiyin vaxt bildiyini dərk et, bilmədiyin vaxt isə bilmədiyini anla.

Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

***Konfutsi***

Mütləq olan bir şey var: bir şeyin doğruluğundan şübhə etmək. Şübhə etmək düşünməkdir. Düşünməksə, mövcud olmaqdır... Belə isə düşnürəm, deməli mövcudam.

***Rene Dekart***

İki şey dünyaya hökm edər: qılınc və düşüncə. Qılınc da əvvəl-axır düşüncəyə məğlub olur.

***Napoleon***

Mən bilirəm ki, mən heç nə bilmirəm.

***Sokrat***

Elm və idman sevgi görmədiyi yeri tərk edər.

***İbn Sina***

Hər şey haqqında bir şey və bir şey haqqında hər şey öyrənməyə çalışın.

***T.Huksley***

Bilgi azad olmağın ayrılmaz bir parçasıdır.

***V.E.Çanninq***

Ümumi bir qayda olaraq həyatdakı ən müvəffəq insan ən yaxşı biliyə sahib olandır.

***Bencamin Disraeli***

Sadəcə bir yaxşı şey vardır – bilik; və sadəcə bir pis şey vardır – cahillik.

***Sokrat***

Xoşbəxtlik bilik ilə əldə edilər. Doğru düşüncə bilikdir.

***Əflatun (Platon)***

Hikmətli bilik, təcrübə ilə dəstəklənən və tətbiq edilmə xüsusiyyətləri daşıyan elmdir. Hikmət elm ilə sənətin birləşməsidir.

***Elmalı M.Hamdi Yazar***

Yaşadığımız yeni əsrdə zənginlik biliyin məhsuludur. Bilik iqtisa diyyatın başlıca xammalı və ən önəmli məhsuluna çevrilməkdədir.

***Tomas Stuart***

Yaxşı bir ağla sahib olmaq kafi deyildir. Önəmli olan ağlı yaxşı istifadə etməkdir.

***Rene Dekart***

İnsanın cahilliyi haqda xəbərsiz olması daha təhlükəlidir, daha qorxuncdur.

***Seynt Jerami***

Az  bilən bildiyinin doğruluğundan əmin ola bilər, bilgi artdıqca şübhə də artır. Təkcə bilik azdır, onu tətbiq etmək lazımdır; istəmək azdır, fəaliyyət göstərmək lazımdır.

***Höte***

Böyük cinayətlər böyük cahillər tərəfindən törədilmişdir.

***Volter***

Boş bir baş şeytanın iş otağıdır.

***S.Smayls***

Bilik yaxşı vaxtlarda sərvət, pis zamanlarda bir sığınaq və yaxşı bir bələdçidir.

***Aristotel***

Bilgi pula bənzəyir, qazandıqca vərdişə çevrilir, ancaq bu yaxşı bir vərdişdir.

***Bernard Şou***

Ağıl insan təbiətinə xasdır,  Insan Allah xassəlidir.

***Xudu Məmmədəov***

İnsanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intelektual potensialı da möhkəmlənir. Bu gün vaxtı gəlibdir ki, biz məhz bu sahəyə sərmayələr qoyaq.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Bilik ağlın aynasıdır.
Ağıllı yoxsul axmaq varlıdan yaxşıdır.
Bilməmək eyib deyil, soruşmamaq eyibdir.
Bilik oxumaq və ya təcrübədə öyrənmək yolu ilə əldə edilmiş mənəvi sərvət, elm isə mütəşəkkil bilikdir.

Bütün yamanlıqların anası cəhalətdir.

Elm – varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəsf etməkdir!

***Atalar sözü***

Bilik xəzinədir, onun açarı sualdır. Bilmədiyiniz şeyi soruşun ki, Allah sizə öz rəhmətini əta etsin. Çünki sual soruşmaqla dörd nəfərə savab verilər: soruşana, cavab verənə, eşidənə və onları dost sayana.

Kim ki, elmi körpəlikdən öyrənir, onun elm öyrənməyi daş üzərində yazı yazmağa oxşayır, kim ki, yaslı vaxtında öyrənməyə başlayır, bu su səthində yazmağa oxşayır.

***İslam hədislərindən***

Bilik qartopu kimi yuvarlandıqca böyüyüyr.

***L.Sidney***

Öyrənmək axan suya qarşı üzməyə oxşayır, irəliləməsəniz, geriləyərsiniz.

***Çin atalar sözü***

Müasir dünyada kralların da qüdrəti bilikdədir.

**Antoni Robbins**

Bilik bir işıq kimidir, ondan istifadə edilərsə, daha da parlaq olar, edilməzsə, sönər.

***Aleksandr Everest***

Biliyin ağası olmaq üçün çalışmanın qulu olmaq şərtdir.

***Balzak***

Elm elm bilməkdir,
Elm özünü bilməkdir,
Sən özünü bilməzsənsə,
Bu necə oxumaqdır?!

***Yunus Əmrə***

Bir millətin əsgəri, ordusu nə qədər güclü olursa olsun, qazandığı qələbələr nə qədər yüksək olursa, olsun, əgər millət elm ordusuna sahib deyilsə, hərb meydanlarında qazanılmış qələbələrin faydası az olacaq. Ona görə də, hər şeydən əvvəl, möhtəşəm bir elm ordusu yaradılmalıdır.

***Mustafa Kamal Atatürk***

Bütün yamanlıqların anası cəhalətdir.

***Yusif Xas Hacib, "Kutadqu Bilik", 1074-cü il***

Bax biliksiz, nadan, dayaz insana
Bənzər yarpaq üstə üzən siçana.

***Mövlana***

Biliksiz adamın dediyi məna
Ağır zərbə olar qanan adama.

***Mövlana***

Ağıl cövhərdir diqqətlə baxsan,
Oxu, kitab olsun amalın sənin.
Oğul, hələ kalsan, biliyə qatlan,
Biliksiz ac qalar kamalın sənin.

***T. Fikrət***

Bəzi kitabları dadmaq, bəzilərini elə-belə udmaq olar, amma az miqdarda kitabı yaxşı çeynəmək və həzm etmək lazımdır.

***F.Bekon***

Nəyi isə oxuyan adam heç bir şey oxumayan adamdan xeyli yüksəkdə durur.

***V.Q.Belinski***

Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazı kimidir.

***T.Karlayl***

Kitabxanalarda 15 sentyabr - Bilik Günü ilə bağlı yuxarı sinif şagirdlərinin iştirakı ilə “Təhsilimiz müasir gəncliyin gözü ilə” adlı konfrans da təşkil etmək əhəmiyyətlidir. Konfransdan öncə onun proqramı tərtib olunmalı, tədbirin keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, təhsil işçilərinin, əməkdar müəllimlərin, şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Elm və təhsil sahəsində yeniliklər)
2. Bilik Günü ilə bağlı kitabxana rəhbərliyinin, jurnalist, təhsil işçilərinin çıxışları.
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların elm və təhsil haqqında məruzələri.
4. Konfransın yekunu.

I məruzəçi: -Uşaqlar bura 15 sentyabr - Bilik Günü münasibətilə yığışmışıq. Məktəblərimiz, ali təhsil ocaqlarımız bizə elm verir. Mənim fikrimcə, elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir.İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir.

II məruzəçi: - Müasir dövrümüz yüksək texnika, yüksək sivilizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Elm və bilik isə yalnız oxumaqla, öyrənməklə əldə edilir. Bu gün mən parta arxasında əyləşərək sevimli müəllimlərimdən elmin dərinliklərini öyrənir, bilik əldə edirəm. Bilirəm ki, elm, bilik böyük qüvvədir, gələcək yüksək ixtisasların özülüdür. Ona görə də çalışıram ki, müəllimlərimin verdiyi bütün tapşırıqları vaxtlı-vaxtında yerinə yetirim, onlara diqqətlə qulaq asım, çoxlu elmi kitablar oxuyum. Ancaq elmli, bilikli olduğum halda mən başqalarından üstün ola bilərəm. Mən isə, həqiqətən, üstün olmaq, öz biliyimlə, bacarığımla tanınmaq istəyirəm.

III məruzəçi: - Uşaqlar bir şeyi də yaddan çıxarmayaq ki, bilikləri biz əziz müəllimlərimizin etdiyi kömək, müəyyən etdikləri istiqamət sayəsində əldə edirik. Müəllim... Adi söz deyil bu... Müəllimlik müqəddəs və şərəfli peşədir. Əsl müəllim sanki bir günəşdir. Gözünün nurunu damla-damla şagirdlərinin yoluna səpən, bunun nəticəsində gözü nurdan düşsə də, özü daim məğrur, adı daim yüksək olan günəş... Müəllim bir günəşdir. Hər axşam qürub edən günəş hər səhər yenidən doğduğu kimi, müəllim də yaşının üstünə yaş gəldikcə ömrünün qürub çağını yaşasa da, şagirdlərin simasında yenidən doğur, yenidən dünyaya gəlir. Deməli, əsl müəllim əbədi yaşayır.

IV məruzəçi: - Tarix boyu elmə, biliyə yiyələnmək şərəfli iş hesab olunub. Müəllim əməyinin nəticəsində formalaşan cəmiyyətdə savadli, bilikli, geniş dünya görüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirirlər.

Konfransın sonunda iştirakçılara “**Əsil müəllim necə olmalıdır?”** sualı ünvanlanır və müəllimə xas olan ən yüksək keyfiyyətlər sadalanır.

1. Dərs dediyi fənni mükəmməl bilməlidir.
2. Hərəkətləri biliyinə uyğun gəlməlidir.
3. Təhsil üçün rüşvətdən imtina etməlidir.
4. Tələbələrlə öz övladları kimi rəftar etməlidir.
5. Bildiklərini şagirdlərinə həvəslə öyrətməli və onlarda gələcəyə dərin inam hissi aşılamağa çalışmalı və bununla da onlara xoşbəxtliyin yolunu göstərməlidir.
6. Tələbələrinə qarşı xeyirxah və səbirli olmalıdır.
7. Tədris planını şagirdlərin əqli qabiliyyətinə uyğun ardıcıllıqla tətbiq etməlidir.
8. Əsil müəllim, ilk növbədə, bütün tələbələrini sevməlidir; auditoriyada mövzudan kənar söhbətlər etməməli, siyasətlə məşğul olmamalı, özündən danışmamalıdır və s.

*15 sentyabr - Bilik Günü ilə bağlı Nağıl otağında məktəbəqədər, ibtidai sinif şagirdləri ilə söhbət keçirmək, tap-tapmaca oyunu, səhnəciklər, şeir, mahnı, rəsm müsabiqəsi də təşkil etmək olar. Müsabiqənin sonunda ən gözəl şeir, mahnı söyləyən şagird, bu mövzuda ən yaxşı rəsm çəkən uşaq kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.*

Pedaqoq və psixoloqlar məktəbə marağın yaranmasında süjetli-rollu (yaradıcı) “Məktəb” oyununun mühümlüyünü qeyd etmişlər. Bu oyunda uşaqlar məşğələlərdə qazandıqları bilik və bacarıqlardan istifadə edir, davranış qaydalarını möhkəmləndirirlər. Uşaqlar öz üzərlərinə müəllimin rolunu götürərək, onun fəaliyyətini, davranışını daha dəqiqliklə əks etdirir, daha ciddi olur, dəftərlərdə rəngli bayraqlarla qiymətlər qeyd edirlər.

Məqsəd:

1. Mövzu ilə əlaqədar uşaqların lüğətinə müxtəlif nitq hissələrinə aid sözlər daxil etmək, lüğəti fəallaşdırmaq;

2. Cümlə qurmaq, onu genişləndirmək bacarığını inkişaf etdirmək;

3. Rabitəli nitqi inkişaf etdirmək.

Vəsait: İki ədəd məktəbli çantası, qutu, qələm, rəngli karandaşlar, balaca vərəqlərə yazılmış tapmacalar, iki ədəd "Əlifba" kitabı, dəftərlər, xətkeş və s.

*Haqqında söhbət açdığımız oyun yaxınlıqda yerləşən yuxarı yaş qrup bağça uşaqları arasında təşkil olunur.*

Oyunu təşkil etməkdən bir neçə gün əvvəl məktəbə ekskursiya təşkil edilməli uşaqlar məktəb həyatı ilə tanış olmalıdırlar. Uşaqlarla məktəb, ekskursiyada gördükləri haqqında söhbət aparılmalı, məktəb həyatını əks etdirən diafilm göstərilməlidir. Məsələn: Divardan məktəb həyatını əks etdirən müxtəlif şəkillər asılır.

Oyunun gedişi:

Kitabxanaçı: - Əziz uşaqlar, bu gün bura 15 sentyabr - Bilik Günü münasibətilə yığışmışıq. Sizlər bu il məktəb adlanan müqəddəs bir məkana ayaq basacaqsınız. O elm ocağında öyrəndikləriniz sayəsində həraniz bir ixtisas sahibi olacaqsınız. Sizlər bizim gələcəyimizsiniz. Vətənimizə layiqli vətəndaş olmaq üçün hər biriniz yaxşı oxumalı, Vətəni sevməlisiniz. Bura bizim Nağıl otağımızdır.

*Kitabxanaçı əvvəlcə uşaqları Nağıl otağı ilə tanış edir. Sonra uşaqların diqqətini stolun üstündəki bağlamaya cəlb edərək deyir:*

- Bu bağlamanı sizə yuxarı sinif şagirdləri hədiyyə göndəriblər. Bilirsinizmi bağlamanın içində nə var?

Baxın, bu bağlamada çoxlu tapmacalar var. Bu tapmacalardan jəqin ki, sizin üçün də maraqlı olanları var, nisbətən böyük bacı və

qardaşlar üçün də. Tapmacanın xüsusiyyəti budur ki, bir şeyin müəyyən əlamətləri söylənilir, amma adı çəkilmir. Siz həmin əlamətlərə əsasən tapmalısınız ki, söhbət nədən gedir. Kim özü tapsa, biz bunu həmən biləcəyik, onun ürəyində tutduğu bir arzuya əməl edəcəyik. Gəlin, birlikdə başlayaq.

Yarpağı var, ağac deyil,
Tikilir, paltar deyil,
Danışır, adam deyil. **(kitab)**

Bir ağacım var, on iki budağı.
Hər budağın otuz yarpağı,
Hər yarpağın bir üzü qara, bir üzü ağ. **(il, ay, gün)**

Yazda yığır yeməyini,
Çox sevir öz əməyini,
Ağ ilan ağzın açar,
Qara ilan vurar keçər. **(iynə-sap)**
Axşam səpdim noxudu,
Sübhdən qalxdım, yoxudu**. (ulduzlar)**



Altı tavan, üstü tavan,
İçində bir qırmızı oğlan. **(dil)**

Bağlasaq gedər,
Açsaq, dayanar. **(ayaqqabı)**

Çox dişi var dişləməz,
Heç kimsəni incitməz.
Əllərdən də heç düşməz. **(daraq)**

Tap nədir,
Dolu gedər, boş gələr,
Ağzımıza xoş gələr. (qaşıq)

Qurmadan işlər,
Durmadan işlər. (ürək)

Toxumsuz bitər,
Dünyaya yetər. (duz)

Ağaca çıxdım adamla,
Bir nəlbəki badamla.
Nə dili var nə ağzı,
Hey danışır adamla. (kitab)

Mənim bir çubuğum var, yeridikcə iz qoyar. (qələm)

*Kitabxanaçı yarışmada iştirak edən fəal uşaqları nağıl kitabları ilə mükafatlandırır. Tapmacanın cavabını tapa bilməyən uşaqlar cərimə olaraq rəqs edib, məktəb haqqında şeir söyləyirlər. Kitabxanaçı sonra bağlamadan "Əlifba" kitabı, rəngli karandaşlar, xətkeş və digər məktəb ləvazimatı çıxarıb, uşaqlara müraciət edir:*

- Bu gördüyünüz əşyaların hamısı birlikdə "dərs ləvazimatı" adlanır. Siz tezliklə məktəbə gedəcək və məktəbli olacaqsınız. Bu əşyalar sizə də lazım olacaq.

- Uşaqlar, bu gün biz sizinlə iki əşyanı müqayisə edəcəyik.

Kitabxanaçı kitab və dəftəri stolun üstünə qoyub soruşur:

- Biz nələri müqayisə edəcəyik?

Uşaqlar:- Biz bu gün kitab və dəftəri müqayisə edəcəyik.

Kitabxanaçı: - Onlar kimə lazımdır?

Uşaqar: -Onlar məktəbliyə, müəllimlərə, tələbələrə lazımdır.

Kitabxanaçı: -Bəs kitabla dəftər bir-birindən nə ilə fərqlənir?

Uşaq: - Kitab qalındır, dəftər isə nazikdir. Kitabda yazı, şəkillər var, dəftər isə ağdır.

Biz kitab və dəftərin bir-birindən nə ilə fərqləndiyini dedik. Bəs onların oxşar cəhətləri hansılardır?

Uşaq: - Kitab və dəftərin ikisinin də forması eynidir, dördküncdür. Hər ikisi kağızdan hazırlanıb.

*Kitabxanaçı uşaqlarla daha bir yarış, sual-cavab keçirir. Uşaqlar iki komandaya ayrılırlar. Hər bir kapitan öz komandasında sualı düzgün tapana nişan təqdim edir. Hansı komandada çox nişan yığılırsa, o qalib hesab olunur.*



1. İlin neçə fəsli var?
2. İldə neçə ay var?
3. Həftənin neçə günü var?
4. Hər fəslin neçə ayı var?
5. Zamana görə daha çox uzun olan nədir?
6. Zamana görə daha çox qısa olan nədir? və s.

*Kitabxananın oxu zalında Bilik Günü ilə bağlı şeir, mahnı müsabiqəsi də təşkil oluna bilər. Tədbirdə məktəb, müəllim, vətən, elm-təhsillə bağlı şeirlər səslənir.*

**Müəllim**

Müəllim, qayğınla böyüyür insan,
Sən əqlə, kamala qanad verirsən.
Ana dilimizin gur bulağından,
Körpə balalara su içirirsən,
Daşda naxış açan memara bir bax,

Bu sənət heç kəsə gəlməsin asan.
Gör sənin sənətin necə çətindir.
Canlı beyinlərdə naxış açırsan.
Alim kəşf eyləyir, yazır, müttəsil,
Sənin də bunlarda var alın tərin.
Sən də yaradansan, kitablar deyil,
Alimin özüdür sənin əsərin.

### Məktəb

Məktəbə ilk dəfə qədəm qoyanda,
"Ana" kəlməsini gətirdik dilə.
O bircə saniyə, o bircə anda,
Bir anda çevrildi düz 11 ilə.

Nə günlər keçirdik, nələr yaşadıq.
Əlimizdə olsa, heç ayrılmazdıq.
O məktəb bizlərə olmuşdu ana.
Biz də o ananın övladlarıydıq.

Son zəng çalınacaq, səda salacaq.
Sevincin yerini qüssə alacaq.
Hər bir kəs dağılıb getdikdən sonra.
Bir insan bir şəxsə həsrət qalacaq.

Qəlbimdə nə qədər sözüm var mənim,
O qədər sevincim, qəmim var mənim,
Bu sözü deməyi bacarmır dilim,
"Əlvida", "əlvida", orta məktəbim!

Bu da son cümlədir, bu da son sətir,
Məktəb macəramız sonamı, yetir?
Nə olar əl saxla, vurma bu zəngi,
Bu gün çox qəmlidi onun ahəngi.

**Birinci dərsdə**

Birinci sinif üçün,
Birinci dərsdi bu gün.
Gülərüzlü uşaqlar,
Baxırdı sevinc ilə.
Elə bil ki, burada
Qarışmışdı gül-gülə.
Müəllim uşaqları,
Süzüb dedi: -Balalar,
Birinci dərs günündə
Belə bir qaydamız var.
Əvvəl tanış oluruq,
Şagirdlər ilə bir-bir,
Kimsə, mahnı oxuyur,
Kimsə də, şeir deyir.
Müəllim də tanıyır
Uşaqları bu gündən.
Utanmayın, indisə,
Sizi dinləyirəm mən.
Müəllim susan kimi,
Sakitlik oldu bir az.
Sonra qalxıb yerindən,
Şeir söylədi Gülyaz.
Qız, oğlan növbə ilə

Bir-bir ayağa durdu.
Coşdu körpə ürəklər,
Min bir sevinclə vurdu.
Arxadakı partaya,
Elə ki, çatdı növbə,
Bantına əl gəzdirib.
Qalxdı balaca Töhfə.
O, “Kukla” mahnısını,
Oxudu incə səslə.
Hamı susub bu qıza,
Qulaq asdı həvəslə.
Bu anda ön cərgədən
Gəldi ağlamaq səsi.
Dondu dodaqlarında
Qızcığazın nəğməsi.
Hamı boylanıb baxdı.
Gülərin partasına,
Pıçıldaşdı uşaqlar:
Görən nə olmuş ona?
Qıvrımsaçlı bu qızın
Başına çəkib əlin.
Onu bir ata kimi,
Oxşadı gənc müəllim.
O, mehriban-mehriban
Soruşdu: - Qəşəng qızım,
Hamı danışıb, gülür
Ağlamaq nəyə lazım?
Gülərin gözyaşları,
Yanağına sürüşdü...
Dedi: - Nə edim axı,

Kuklam yadıma düşdü.

**Mir Sabir**

## Görüşünə gəlmişəm

İlk ustadım- müəllimim!
Yenə sənin görüşünə gəlmişəm mən,
Gəlmişəm ki, yenə sənin
Qabağında şagird olum, boynu bükük,
Gəlmişəm ki, yenə səndən xəbər alım
Şeir nədir! Şair kimdir!
Deyəsən ki, niyə şair müqəddəsdir,
Niyə şeir bir tilsimdir.
Gəlmişəm ki, o müqəddəs
İlkinliyə uyum bir də.
Uzaq illər arxasından gözəlliyin
Gül ətrini duyum bir də.
Gözüm yazı lövhəsində,
Könlüm şeir həvəsində
Mən xəyala dalım yenə.
O uşaqlıq günlərindən
Bu ahıllıq illərinə
Bir cığır da salım yenə.
Gəlmişəm ki,
Təbaşirli əllərindən
Toz ələnən saçlarına
Baxım bir də.
"Qığılcımdan alov doğar!"- dedikcə sən
Zülmətlərin ağuşunda
Şimşək olub çaxım bir də.

Yadımdadır pəncərəsi
Günə baxan bapbalaca sinifimiz...
O sinifdən başlamışıq
Bu dünyanı sevməyə biz.
Həqiqətdən danışdıqca
Həqiqətin şöləsinə
Bənzəyirdin sən özün də,
Yüz günəşin nuru vardı hər sözündə.
Danışardın haqqın yolu
Niyə belə çətin olur.
Haq-həqiqət əsgərləri
Dönməz olur, mətin olur!
Öyrət mənə!
Öyrət yenə!
Həqiqətə gedən yolun hər sirrini!..
Bütün dünya şairləri bundan yazır
İlk şeirini son şeirini.
Öyrət mənə! Qoy ilhamım
Məni heç vaxt xar etməsin el yanında.
Həqiqətdən söz düşəndə
Haq sözümü deyim mən də
Bu aşkarlıq zamanında.

**Gəray Fəzli**

**İlk müəllimim**

Hara getsəm mənim ilk müəllimim,
Əziz adın bir an düşməz dilimdəm.
“Ana”, “Vətən” – kəlməsini ilk dəfə
Yazdırmısan sən tutaraq əlimdən.
Nəqərat:

Dərs deyərək, çəkmisən
Zəhmətimi bahar, qış.
O gümüşü saçların
Bəlkə ondan ağarmış?!.
Xəyalımdan çıxmaz bir an nəzərin,
Üstümdədir sanki yenə gözlərin.
Geniş həyat yollarında hər dəfə
Qollarıma qüvvət vermiş sözlərin.
Nəqərat:
Neçə məktəb qurtarsam da əgər mən,
İlk müəllim – yenə sənsən, yenə sən!
Mən hörmətlə çəkəcəyəm adını,
Yaşım ötsə, saçıma da düşsə dən...
**Musiqisi Rəşid Şəfəqin, sözləri Aslan Aslanovundur**

**Ağıllı oğlum, oyan!**

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə.
Səhər ziyandır yuxu.
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar.
Qalx ki, hamı oyanmış,
Dünya nura boyanmış.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
**Abdulla Şaiq**

**Məktəbə çağırış**

Mənim bağım, baharım
Fikri işıqlı oğlum!
Məktəb zamanı gəldi ,
Dur, yaraşıqlı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım !
Gün çıxdı,sübh açıldı,
Qaranlıqlar qaçıldı,
Pəncərədən gün düşdü,
Otaqlara saçıldı.
(nəqərat)
Oğul,oğul, amandır,
Çox yuxlamaq yamandır,
Çox yuxlamaq -şeytandan,
Tez durmaq -Allahdandır.
(nəqərat)
Nəsihət al,nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası,
Müşkül olur,həqiqət.
(nəqərat)
Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.
(nəqərat)
Allah olsun sədiqin,
Məktəb sənin şəfiqin;
Dur ,məktəbə get ,oğlum,
Dəftər sənin rəfiqin.

(nəqərat)
Müəllimin kəlamın
Al, saxla ehtiramın;
Həqdən edər təmənna
Məktəbinin dəvamın.
(nəqərat)
Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver;
Qədrini bil elmü fəzlin,
Elmin yolunda can ver.
(nəqərat)

**M.Ə.Sabir**

*Həmçinin kitabxanada yuxarı sinif şagirdləri arasında Bilik Günü ilə bağlı inşa müsabiqəsi də təşkil etmək olar. Hazırlaşmaq üçün uşaqlara 1 həftə vaxt verilir. İnşaların yoxlanılması üçün kitabxanada müsiflər heyyəti təşkil olunur. Bu mövzuda ən yaxşı inşa yazan məktəbli müdriyyət tərəfindən mükafatlandırılır.*

**Ədəbi - bədii gecə**

15 sentyabr - Bilik Günü ilə əlaqadar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də əbədi-bədii gecədir. Ədəbi-bədii gecə oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Tədbirə təhsil işçiləri, məktəb və bağça müəllimləri, mədəniyyət işçiləri, məktəblilər dəvət olunurlar. Ö ncə tədbir iştirakçılarına 15 sentyabr Bilik günü ilə bağlı kitabxana tərəfindən hazırlanmış “Məktəb zamanı gəldi...” adlı slayd təqdim olunur.

*Sonra aparıcılar Azərbaycan himninin sədaları altında səhnəyə yaxınlaşırlar.*

I Aparıcı: - Salam dəyərli qonaqlar, tədbir iştirakçıları. Müəllim və şagirdlərin çoxdan gözlədikləri 15 sentyabr-Bilik Günü gəldi. Ölkədə fəaliyyət göstərən ümumtəhsil məktəblərində təqribən üç aylıq tətildən sonra ilk zəng çalındı. Bu gün təkcə məktəblilərin deyil, həm də onları müşayiət edən valiydenlərin çöhrəsində sevinc və fərəh hissləri yaşanır.

II Aparıcı: - Üz-gözlərindən sevincqarışıq həyəcan hiss olunan birinciləri də başa düşmək çətin deyil. Axı ilk dəfə parta arxasinda oturmaq onların həyatında yeni bir mərhələdir. Biz inanırıq ki, bu uçaqlar gələcəkdə Azərbaycanın layiqli vətəndaşları olacaqlar.

I Aparıcı: -15 sentyabr həm də Azərbaycan tarixində baş verən çox əlamətdar bir hadisə ilə bağlıdır. Düz 97 il öncə məhz bu gündə Azərbaycan və türk əsgərlərindən ibarət Qafqaz-İslam Ordusu Bakını bolşevik və daşnaklardan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna. Eşq olsun Türk əsgərinə.

*Bu anda "Bir Millət- İki Dövlət" adlı slayd tamaşaçılara təqdim olunur.*

II Aparıcı: - Elmə, biliyə yiyələnmək bütün dövrlərdə şərəfli iş hesab olunub. Müəllim əməyinin nəticəsində formalaşan cəmiyyətdə savadli, bilikli, geniş dünya görüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti dahada inkişaf etdirirlər.

I Aparıcı: -Müəllim! Bu ad necə qürur və iftixarla səslənir. Azərbaycanın görkəmli maarifçisi Həsən bəy Zərdabinin sözlərini xatırlamaq yerinə düşər. "Əgər məndən soruşsalar ki, ən şərəfli peşə hansıdır, mən o zaman iftixarla belə deyərdim- müəllimlik!

Məktəblilər səhnəyə çıxıb müəllim haqqında gözəl kəlamlar söyləyirlər.

I məktəbli: -Həyatda ən böyük xoşbəxtlik odur ki, insanlara lazım olasan. Bəs onda müəllimlərdən daha artıq xoşbəxt olan varmı? Əlbətdə, yox!

Müəllim! Dağ əzmi vardır bu adda,
Bu ada borcluyuq daim həyatda.

II məktəbli: - Yazıçı insanlara öz kitablarını, rəssam əsərlərini irs qoyur. Bəs müəllim? Müəllim öz şagirdlərinin qəlbində, onların hərəkət, rəftar və düşüncələrində yaşayır. Müəllimin ölməzliyi də məhz bundadır!

Mən ucsuz-bucaqsız nurlu Asiman,
Parlayan ulduzum, ayım sizsiniz.
Mən dalğalı dəniz, sahilsizümman,
Daima çağlayan çayım sizsiniz!

III məktəbli: - Müəllim ilk dəfə şagirdlərinə "a" hərfini öyrədir. Hər bir insanın gözünün nuru olan "ana" kəlməsini yazdırır. Getdikcə öz şagirdlərinin günəş kimi saf qəlbinin əbədi mehmanına çevrilir.

Mən sizi qartal  tək uçan görməsəm,
Alışır ciyərim, yanır ürəyim.
Sizinlə şadlanıb birgə gülməsəm,
Gülməz gözlərimdə xoş gələcəyim.

IV məktəbli: - Müəllim ömrü möcüzələrlə dolu zəngin bir dünyadır. Bu elə bir dünyadır ki, heç vaxt tükənən deyil. Əksinə günü-gündən varlanan, nurlanan, hamının ehtiyacı olan mənəvi sərvətdir.

Həyatda ümidim, diləyimsiniz,

Gələcəyə baxan gözüm sizsiniz.
Atəşi sönməyən ürəyimsiniz.
Aləmə səs salan sözüm sizsiniz!
I Aparıcı: - Müəllimlərin əməyini üzə çıxaran isə sizin kimi gül balalardır. Müəllim əməyi cahan süfrəsinə həmişə bəzək verir. Müəllim günəşdirsə, siz uşaqlar onun zərrəcikləri, nur parçalarısız. Müəllim təmizlik, saflıq dəryasıdır, şagirdlər isə onun ləpələri. Müəllim səmadır, şagirdləri onun şölənənən ulduzları.

II Aparıcı: - Bəli, uşaqlar sevinc, xoşbəxtlik rəmzidir. Onların hər bir insan və ailə üçün nə demək olduğunu sözün qüdrəti ilə canlandırmaq həqiqətən də çətindir.

I Aparıcı: - Uşaqlarının sosial-mənəvi ehtiyaclarını təmin etmək, onları müstəqil həyata ləyaqətli vətəndqaş kimi hazırlamaq, cəmiyyətdə yerini tapmasına yardımçı olmaq hər bir valideynin ən böyük arzusudur. Elə bu arzu ilə də hər bir azərbaycanlı uşaqlarının sabahı naminə səylə çalışır, onları məktəbə, ali təhsil ocaqlarına yola salır, gözəl təhsil alması üçün şərait yaradır, min bir zəhmətə qatlaşır.

II Aparıcı: - Hər bir ölkənin gələcəyi oradakı təhsilin səviyyəsi ilə çox bağlıdır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.

Müəllimlərimiz gələcəkdə Azərbaycan xalqının fəxrinə çevriləcək hələ neçə-neçə gəncin həyat yolunun müəyyənləşməsi üçün öz ömürlərini bundan sonra da şama çevirəcək və gül balaların həyat yoluna işıq salacaqlar. Azərbaycan gəncliyiyin düzgün, intelektli, savadlı yetişməsində biz kitabxanaçıların üzərinə də böyük

məsuliyyət düşür. Gəlin çalışaq ki, bu şərəfli işi layiqincə yerinə yetirək.

**Yeni dərs iliniz mübarək, əziz uşaqlar!**

# Ədəbiyyat siyahısı

### *15 SENTYABR - BİLİK GÜNÜ*


**Atmaca A.** Mədəni səviyyəni necə yüksəltməli. - Bakı : Altun Kitab, 2013. - 128 s.

**Əhmədli B.** Bilik // Azərizm yolunda – Türkizmə doğru. – Bakı : Nərgiz, 2012. – S.15-23. – Məqalə ilk dəfə "Açıq fikir" qəzetinin 31 iyul 2010-cu il nömrəsində dərc edilib.

**Əhmədli B.** Bilik kəsmək // Azərizm yolunda – Türkizmə doğru. – Bakı : Nərgiz, 2012. – S.15-23. – Məqalə ilk dəfə "Unikal" qəzetinin 22 sentyabr 2010-cu il tarixli nömrəsində dərc edilmişdir.

**Qocayev Ə. Ə. Bilik günü** // Bayramlar və tarixi günlər. - (Məktəblinin Kitabxanası. Elmi-Kütləvi Ədəbiyyat). – S.74.

**Seyidov N.** Məktəb uşağın dostudur : Uşaqlar üçün yararlı məktəbi yaratmaq yolunda əsas istiqamətverici prinsiplər : Metodik vəsait. - Bakı : [s. n.], 2006. - 60 s.

**Yusifoğlu R.** Günlərimiz, aylarımız : şeirlər - Bakı : Göyərçinin kitabxanası, 2003. - 47 s.


### SƏNİN MARAQ DÜNYAN


**Abbasov V. M.** Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri. I cild. - Bakı : "Təhsil" , 2010. - 576 s.

**Abbasov V. M.** Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri. II cild. - Bakı : "Təhsil" , 2013. - 616 s.

**Ağayeva G.** İnsan. Dünyanın ən böyük möcüzəsi. - Bakı : Ayna Mətbu Evi, 1999. - 80 s. : şək. - (Ayna Uşaq ensiklopediyası).

**Aranlı M.** Məntiq (I-IV sinif şagirdləri üçün). – B. :2009. – 72 s.

**Babaxanov N.** Yer kürəsi. Planetimiz olduğu kimi. - Bakı : Ayna Mətbu Evi, 1999. - 96 s. : şək., rəngli şək. - (Ayna Uşaq ensiklopediyası).

**Babayev M.B.Ə.** Maraq və məntiq. – B.: Təhsil NPM,

2004.**Babayev M.B.Ə.** Maraq və məntiq. 5 il dövlət televiziyasında : 72 dərs. – Bakı : Təhsil NPM,2004. – 190 s.
**Babayev M.B.Ə. (Şumərtürk).** Məntiqi düşündürmələr. – B.: Oka ofset, 2013. – 192 s.
**Babayev M.B.Ə., Qurbanov E.** Məntiqlə düşün. – Bakı : 2008. – 100 s.
**Babayev M.B.Ə.** Zəka oyunları : məntiqdən məsələlər. – Bakı : Altun kitab, 2013. – 144 s.
**Bakı tarixinin ensiklopediyası:** Sara Aşurbəyli-110 il - Bakı : Elm və Təhsil, 2016. - 88 s.
**Bilik yarışması -** 1 : 100 mövzu, 500 sual, cavablar, şərhlər. - Bakı : Altun Kitab, 2012. - 224 s. : il. - (Xəmsə milli intelektual oyun).
**Bilik yarışması -** 2 : 100 mövzu, 500 sual, cavablar, şərhlər. - Bakı : Altun Kitab, 2012. - 224 s. : il. - (Xəmsə milli intelektual oyun).
**Bilik yarışması -** 3 : 100 mövzu, 500 sual, cavablar, şərhlər. - Bakı : Altun Kitab, 2014. - 224 s. : il. - (Xəmsə milli intelektual oyun).
**Boqomolova O. B**. Məntiq məsələləri. – Bakı : Çıraq , 2007. – 241s.
**Bunları bilmək istəyirəm!** : İllüstrasiyalı intellektual ensiklopediya : Elm, səyahətlər, mədəniyyət, din, texnika, kosmos, siyasət, insan. – Bakı : turan evi, 2013. – 400 s.
**Bunları bilmək maraqlıdır**. - Bakı : Çaşıoğlu-Multimedia, 2010. - 56 s.
**Delalandr B.** Dinozavrlar [şəkillərlə zəngin] : Larusun inanılmaz ensiklopediyası. - Bakı : Zebra group, 2012. - 42 s.
**Əbubəkiroğlu C.** Məntiq və intellekt 1. – Bakı : 2010. – 216 s.
**Ələkbərov U.** Ekologiya. Dünyamızın bu günü və sabahı. - Bakı : Ayna Mətbu Evi, 2000. - 80 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası**).**
**Əliyev R.** Din. Əxlaqa aparan yol. - Bakı : Ayna Mətbu Evi, 2004. - 80 s. - (Ayna Uşaq ensiklopediyası).

**Gəncəli S.** 777 sual... : Düşündürücü, əyləncəli ensiklopedik toplu. - Bakı : Azərbaycan, 2008. - 232 s.
**Həkimoğlu İ.** Uşaq ensiklopediyası : Heyvanların rəngli dünyası. - Bakı : Qələm , 2012. - 256 s.
**Həsənli C.** Tarix keçmişdən gələcəyə : Uşaq ensiklopediyası. - Bakı : Ayna Mətbu Evi, 2004. - 95 s. : rəngli şək. - (Ayna Uşaq ensiklopediyası).
**Həsənzadə C.** İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti. - Bakı : Ayna Mətbu Evi, 1999. - 96 s. - (Ayna Uşaq ensiklopediyası).
**Həşəratlar** : Məktəbyaşlı kiçik uşaqlar üçün. - Bakı : Qanun ; Bakı : "Əli və Nino" nəşriyyatı, 2013. - 32 s. : rəngli il. - (Ağıllı oğlan və qızların ensiklopediyası). - "Spiders Spin Webs" kitabı əsasında hazırlanmışdır.
**Hüseynova A.** Musiqi. Səmimiyyət mənbəyi. - Bakı : Ayna Mətbu Evi, 2001. - 94 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).
**Xəlilov İ.** Teatr və kino. Həyatın hər iki üzü : Ensiklopediya. - Bakı : Ayna Mətbu Evi, 2001. - 79 s. - (Ayna Uşaq ensiklopediyası).
**İnsan bədəni**. - Bakı : Qanun ; Bakı : "Əli və Nino" nəşriyyatı, 2013. - 32 s. : rəngli il. - (Ağıllı oğlan və qızların ensiklopediyası). - "My Tummy Rumbles" kitabı əsasında hazırlanmışdır.
**İsmayılov Ç.** Neft. Dünyamızın şah damarı. - Bakı : Ayna Mətbu Evi, 2001. - 79 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası). -
**Kaplan A.** Nə? Necə? Nə üçün? - Bakı : Bərəkət, 2010. - 108 s.
**Kim? Nə? Harada?** - Bakı : Xəzər, 2010. - 96 s.
**Kimya** : Abituriyentlər və yuxarı sinif şagirdləri üçün dərs vəsaiti . - Bakı : TQDK - "Abituriyent", 2005. - 615 s.
**Qasımov R.** İnformatika. Sabaha açılan pəncərə. - Bakı : Ayna Mətbu Evi, 2001. - 79 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).
**Qüdrətoğlu A.** 1001 sual, 1001 cavab, 1001 məlumat : Bunları bilmək maraqlıdır. - Bakı : Maarif, 2006. - 92 s.
**Qüdrətoğlu A.** 1001 sual, 1001 cavab, 1001 məlumat : Bunları

bilmək maraqlıdır. - Bakı : Maarif, 2007. - 88 s.
**Mən dünyanı öyrənirəm** : uşaq ensiklopedik toplusu. - Bakı : Təfəkkür NPM, 2005. - 208 s.
**Mənsimov S. A.** Kimya : məlumat kitabı : Orta məktəbin yuxarı sinif şagirdləri və abituriyentlər üçün. - Bakı : Bilik, 2005. - 96 s.
**Məntiqli oyun**. - Bakı : Beşik, 2008. - 71 s. - (Mən və mənim dünyam).
**1001 sual, 1001 cavab, 1001** məlumat... : Ensiklopedik kitab / tərt.ed. A. Qüdrətoğlu. - Bakı : Gənclik, 2008. - 192 s.
**Musabəyov R.** Cəmiyyət və dövlət. - Bakı : Ayna Mətbu Evi, 2004. - 80 s. : rəngli şək. - (Ayna Uşaq ensiklopediyası).
**Musayev İ.** Okean. Bəşərin beşiyi. - Bakı : Ayna Mətbu Evi, 2002. - 60 s. : rəngli şək. - (Ayna Uşaq Ensiklopediyası).
**Nəsibov C.** İdman. Güc və gözəllik. - Bakı : Ayna Mətbu Evi, 2000. - 94 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).
**Planetin qəribə quşları**. - Bakı : Qanun ; Bakı : "Əli və Nino" nəşriyyatı, 2013. - 32 s. - (Ağıllı oğlan və qızların ensiklopediyası). - "Geese Go On Holiday" kitabı əsasında hazırlanmışdır.
**Seyidov R.** Elm və Texnika. İnkişaf tarixi. - Bakı : Ayna Mətbu Evi, 2001. - 80 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).
**Söyütlü E. O.** Zəka sualları. - Bakı : Bərəkət, 2010. - 71 s.
**Süleymanov T.** Kosmos : İnsan kainata can atır. - Bakı : Ayna Mətbu Evi, 2002. - 80 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).
**Teatr və kino** Həyatın hər iki üzü. - Bakı : Ayna Mətbu Evi, 2004. - 80 s. - (Ayna Uşaq ensiklopediyası).
**Uşaqlar üçün ensiklopediya.** Geologiya. - Bakı : Şərq-Qərb, 2008. - 712 s. - (Lüğət və Ensiklopediyalar). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.
**Uşaqlar üçün ensiklopediya**. İnformatika. - Bakı : Şərq-Qərb,

2008. - 616 s. - (Lüğət və Ensiklopediyalar). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

**Uşaqlar üçün ensiklopediya.** Kimya. - Bakı : Şərq-Qərb, 2008. - 640 s. - (Lüğət və Ensiklopediyalar). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

**Uşaqlar üçün ensiklopediya.** Riyaziyyat. - Bakı : Şərq-Qərb, 2008. - 624 s. - (Lüğət və Ensiklopediyalar). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

**“Məktəb zamanı gəldi...” 15 sentyabr**

(metodk vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 29
Çapa imzalanmışdır: 10.09.2016
Tirajı: 100
Pulsuz